

Musa Xanbabazadə

## Məmləkətə məktublar" silsiləsindən tək beytlər

Məmləkətim!
Silkələnək içəridən, qoy tökülsün beyinlərdən kəsafətlər,
Cərgəmizdən qopub getsin, ilim-ilim yerə batsın yad sifətlər.

Məmləkətim!
Yalan qorxur doğrudan, izləyir gizli-gizli onun addımlarını,
Hədələyir, şərləyir ipə-sapa yatmayan yaxın adamlarını.

Məmləkətim!
Yalançı analar saxta laylalar çalır millətə,
Elə çalır ki, oyanmağı getsin ta qiyamətə.

Məmləkətim!
El obanın dərdlərini öz dərditək yaşayanlar heç yoxdu, yox.
Bu millətin yarasına duz basanlar məlhəm yapandan çoxdu, çox!

Məmləkətim!
Kişilər tanıyıram satır öz beşiyini
Doyunca yemləməkçün itini, pişiyini.

Məmləkətim!
Geyinim əllərimə qoy dəmir əlcəkləri,
Qoparım stolundan rüşvətxor böcəkləri.

Məmləkətim!
Savadlaşmır, bilikləşmir, elmləşmir məktəblərdə balalar,
Belə getsə içimizdə nadanlıq və fanatizm balalar.

Məmləkətim!
Min bağı, min gülzarı andırır dükan-bazar,
Bura gələn hər kəsi fəqət tez tapır azar.

Məmləkətim!
Bir nəfərin gücü çatmaz qəlbi zülmət iblislərə,
Təmizlərə gizli-gizli quyu qazan nakəslərə.

Məmləkətim!
Şuşa, Laçın, Kəlbəcər - bu şəhid şəhərlər dağlayır sinəmizi,
Qıyya çəkən ruhları müqəddəs savaşlara haraylayırlar bizi.

Məmləkətim!
Göyərməsin o torpaq ki, sayılanı oğrulardır,
Möhtaclığın pəncəsində soyulanı doğrulardır.

Məmləkətim!
Sığallama, tumarlama gəl ilanın başını sən,
Bir gün gələr şahə qalxar, çalar səni o, qəflətən.

Məmləkətim!
Susmasınlar avtomatlar, pulemyotlar, səslənsinlər şaraq-şaraq,
Erməni caynağını Şuşanın, Kəlbəcərin boğazından qoparaq!

Məmləkətim!
O aprel günlərində bizim cəsur əsgərlər birləşib dəstə-dəstə,
Əsirdilər yel kimi, axırladır sel kimi birbaşa ölüm üstə.

Məmləkətim!
O aprel günlərində hücum əmri alanda Milli Ordu əsgəri,
Baş götürüb qaçırdı süngüsü gürzə başlı erməni zabitləri.

Məmləkətim!
Erməni zülmətindən, erməni vəhşətindən üzüağ çıxacaqsan,
Yarımcan torpaqları, kor olmuş ocaqları bağrına sıxacaqsan!

ədalət.2017.8 aprel.S.16.